Uşaqlar üçün Müqəddəs Kitab

təqdim edir



# Müdrik Padşah Süleyman

Müəllif: Edward Hughes

İllüstrasiya edən: Lazarus

Uyğunlaşdıran: Ruth Klassen

Tərcümə edən: Günay Əsədova

Təqdim edən: Bible for Children
www.M1914.org

©2017 Bible for Children, Inc.
Lisenziya: Bu kitabı satmamaq şərti ilə kitabın surətini çıxarda bilmək hüququna maliksiniz.

Padşah Davud böyük Allah adamı idi. İsrail onun hökmranlığı dövründə padşah Şaulun hökmranlığı dövründəkindən on dəfə çox böyümüşdü.



Ancaq o, daha hökmranlıq edə bilmirdi. Davud yaşlanmışdı və yorulmuşdu! Həm də o, xəstə idi! Onun yer üzündəki həyatı sonra çatırdı.





Davudun
oğullarından biri,
Adoniya artıq özünün
padşah olması haqda
İsrail xalqına dedi.
Adının mənası “Rəbbim
Allahdır” olmasına
baxmayaraq,
Adoniya yaxşı
adam deyildi.



O, Davudun ona qarşı çıxmağa çox zəif olduğunu bilərək, taxtı oğurlamağa çalışırdı. Amma Allahın planları var idi!

Davudun arvadı Bat-Şeva bilirdi ki, onun oğlu Süleyman padşah olmalı idi.  O, Davuda Adoniyanın planları haqqında danışdı. Xəstə olaraq, Davud öz rəhbərlərini bir yerə topladı və açıq şəkildə Süleymanı İsrailin padşahı elan etdi.





Süleymanın Adoniya ilə heç bir çətinliyi yox idi, çünki İsrail xalqı Davuda inanırdı.  Davud onlara dedi ki, Süleyman Allahın padşah olmaq üçün seçdiyi şəxsdir.  Bundan qısa müddət sonra Davud öldü.





Davud ölməzdən əvvəl o, Allaha itaət etmək və yaxşı padşah olmaq haqqında Süleymanla danışdı. Davud oğluna dedi: “Allahın yolları ilə get ki, etdiyin bütün işlərdə uğur qazanasan”.  Bu, yaxşı məsləhət idi!  Sonra Süleyman atası Davudun taxtında oturdu, onun padşahlığı möhkəm qurulmuşdu.

Bir gecə Süleyman yuxu gördü. Yuxusunda Allah ona göründü və dedi: “Dilə!  Nə verim sənə?” Sən nə istəyərdin? Süleyman yaxşı padşah olmaq ...



... üçün hikmət istədi. Gənc padşahın istəyi Allaha xoş oldu. Süleyman istədiyini əldə etdi, ancaq Allah həmçinin ona var-dövlət və şöhrət də vəd etdi.



İnsanlar Süleymanın hikmətini çox tez aşkar etdilər.  Bir gün bir körpə ilə iki ana onun yanına gəldi.  Bir qadın dedi: “Bu qadının oğlu gecə öldü və o, öz ölü körpəsini mənim sağ körpəmlə dəyişdirdi”.



Digər qadın dedi: “Xeyr!  Sağ olan mənim oğlumdur və ölü olan sənin oğlundur”.  Padşah körpənin həqiqi anasının kim olduğunu necə tapa bilərdi?



Onda padşah dedi: “Qılınc gətirin”. Beləliklə, onlar padşaha qılınc gətirdilər. Səncə padşah qılıncla nə etməyə hazırlaşırdı?



Padşah dedi: “Sağ olan usagı iki yerə bölün və yarısını bir qadına, digər yarısını da o biri qadına verin”.  Onda sağ olan uşağın anası dedi:

“Aman, ağam,
sag olan uşağı
ona verin,
amma onu
öldürməyin”.



Digər qadın isə dedi:
“Bölün, qoy nə onun
olsun, nə mənim”.





Beləliklə, padşah dedi: "Sağ olan uşağı birinci qadına verin.  Uşağın anası odur".  Bütün İsrail bu hökm haqqında eşitdi və onlar padşaha çox hörmət etdilər.  Onlar onda Allahın hikmətini gördülər.


İsrail xalqının Allaha ibadət etmək üçün məbədi yox idi. Davud məbəd tikməyi planlaşdıranda Allah ona dedi:
“Sənin oğlun Mənim adıma ev tikəcək”.

Beləliklə, Süleyman Yerusəlimdə gözəl məbəd tikməyə başladı.



Məbədi tikmək yeddi il çəkdi. Amma Süleymanın məbədi Rəbbə həsr etdiyi böyük



gün gəldi.


Gözəl duadan
sonra padşah
və xalq sevinclə
minlərlə
qurbanlar
təqdim etdilər
və iki həftə böyük
ziyafət oldu.

Bundan sonra Allah yenidən Süleymana göründü, Rəbbə itaət edəcəkləri müddətdə





ona və İsrailə xeyir-dua verəcəyini vəd etdi.

Təəssüf ki, nə Süleyman, nə də İsrail xalqı həmişə Allaha itaət etmədi. Padşah Allahın istəmədiyi çoxlu sayda qadınlarla evləndi.




Süleymanın bütpərəst arvadları onun ürəyini bütlərə sarı çevirdilər; onun ürəyi atası Davudun olduğu kimi, artıq Allahı Rəbbə sadiq deyildi.



Süleyman Allaha itaət edə bilmə şansını boş yerə sərf etdiyi müddətdə təbəələrindən birinin, Yarovamın qəribə bir təcrübəsi oldu.



Peyğəmbər ona dedi ki, Allah Süleymanın padşahlığını böləcək və Yarovam on qəbiləyə hökmranlıq edəcək. Yarovam cəld Misirə qaçdı. O bilirdi ki, əgər orada qalsaydı




Süleyman onu öldürəcəkdi.



Nəhayət, Süleyman öldü. Onun oğlu Rexavam xalqın üzərinə Süleymandan da ağır boyunduruq qoydu. On iki qəbilə üsyan etdi və Yarovamı özlərinə rəhbər seçdilər.



Süleymanın böyük padşahlığı Allahın peyğəmbəri dediyi kimi, iki hissəyə bölündü. Allah itaətsizliyə xeyir-dua verə bilməz!

# Müdrik Padşah Süleyman

Allahın Sözü, Müqəddəs Kitabdan
olan bir hekayədir

1 Padşahlar 1-12

“Kəlamının açıqlanması nur saçır”.
Məzmur 119:130


Son

Bu Müqəddəs Kitab hekayəsi bizə, bizi yaradan və Onu tanımağımızı istəyən Allahımızdan bəhs edir.

Allah, Onun günah adlandırdığı pis şeyləri etdiyimizi bilir.  Günahın cəzası ölümdür, lakin Allah səni o qədər çox sevir ki, O, Öz yeganə Oğlunu, İsanı Çarmıxda ölmək və sənin günahlarına görə cəzalandırılmaq üçün göndərdi. Sonra İsa dirildi və Göylərə getdi!  Əgər sən İsaya inansan və Ondan günahlarını bağışlamasını diləsən, O, bunu edəcək!; O indi gələcək və daxilində yaşayacaq və sən əbədiyyən Onunla birlikdə yaşayacaqsan.

Əgər sən bunların həqiqət olduğuna inanırsansa, onda bunu Allaha de: Əziz İsa, mən inanıram ki, Sən Allahsan və mənim günahlarıma görə ölmək üçün insan oldun və indi Sən yenidən yaşayırsan.  Xahiş edirəm, həyatıma gəl və mənim günahlarımı bağışla ki, mən indi yeni həyata malik ola və bir gün Səninlə birlikdə əbədiyyən yaşaya bilim.  Sənə itaət etməkdə və Sənin övladın kimi yaşamaqda mənə kömək et.  Amin.

**Müqəddəs Kitabı oxu və hər gün Allahla danış!   Yəhya 3:16**